# VAHABZADƏDƏN VURĞUN HAQDA MARAQLI - XATİRƏ



Gözəl şairimiz, eyni zamanda böyük ədəbiyyatçı alim, professor Bəxtiyar Vahabzadənin auditoriyada dərs zamanı bizə danışdığı bir epizodu yada salmaq istəyirəm.

Axar.az xəbər verir ki, bu sözləri professor Aydın Abbasov Moderator.az-a müsahibəsində deyib. O, müsahibə əsnasında Bəxtiyar Vahabzadənin xalq şairi Səməd Vurğunun evində şahidi olduğu bir hadisədən söz açıb:

"Bəxtiyar müəllim danışırdı ki, bir gün K.Marks (indiki Fəvvarələr meydanı) bağının yanından keçirdim, şair Osman Sarıvəlliyə rast gəldim. Mənə dedi ki, gedirəm Səməd Vurğungilə, həvəsin varsa, gedək, o, ağır yataqdadır. Qoşuldum ona getdim, o ərəfədə onun poeziyasından dissertasiya yazırdım. Yolüstü gördük ki, Vurğunun çapa hazırlanan üççildliyinin birinci cildini satırlar. Osman müəllim birini aldı və dedi, indi Səmədi sevindirəcəyik. Evə gəldik, Səməd Vurğun yataqda idi. Osman müəllim onunla gənclik yoldaşı olduğundan ərklə dedi: "Ayə, çoxmu yatassan, qalx, millət səndən yeni şeirlər gözləyir. Al, budur ey, üççildliyin birinci cildi çıxıb". Vurğun bir qədər dirçəldi və uşaq sevinci ilə kitabı vərəqləməyə başladı. Birinci səhifədən başlayaraq uzun-uzadı "rəhbərə salam, rəhbərin şineli, rəhbər, rəhbər, partiya, komsomol" şeirləri düzülmüşdü. Birdən kitabı büküb evin ortasına atdı və dedi: "Ə, bunu nəyə gətirmisən, mən ölməmiş mənim yaradıcılığım ölüb ki!" Bir qədər fikirləşdikdən sonra isə dedi: "Vse toki on velikiy çelovek!" Bəxtiyar müəllim deyirdi ki, o, bəzən hirslənəndə rusca danışırdı".[1]

[1] https://axar.az/news/kult/112321.html

# BİR XATİRƏ – SƏMƏD VƏ BƏXTİYAR




Bəxtiyar Vahabzadə xatirələrində yazır:

"Xalq şairi Səməd Vurğun xəstəxanada idi. Bir dəfə oğlu Yusiflə birlikdə onun yanına getmişdik. Ordan-burdan danışandan, hal-əhval tutandan sonra üzünü mənə tutub soruşdu ki, Bəxtiyar, yaradıcılıqda nə yenilik var? Təzə nə yazmısan?

Yusif Səmədoğlu dedi ki, ata, Bəxtiyar bir gözəl şeir yazıb, amma qəzetlər dərc eləmir. Deyirlər ki, millətçi şeirdir.

Səməd Vurğun soruşdu ki, şeir buradadırmı?

Mən cibimdən şeir yazılmış vərəqi çıxarıb, ona verdim.

Səməd Vurğun şeiri diqqətlə oxudu. Sonra qələmini götürüb həmin vərəqdə şeirin adı ilə birinci bəndin birinci misrası arasındakı boş yerdə — epiqraf, ithaf yerində öz əli ilə yazdı: "Biz Vətənimizi, millətimizi və dilimizi sevirik! V.İ.Lenin"

Üzünü yenə mənə tutdu:

- Sabah aparıb verərsən "Kommunist" qəzetinə…

Mən də onun dediyi kimi etdim".

Bir gün sonra Bəxtiyar Vahabzadənin məşhur "Ana dili" şeiri Azərbaycan SSR-nin bir nömrəli qəzeti sayılan "Kommunist" qəzetinin ilk səhifəsində dərc olundu…[2]

***Nemət Tahir,***
***"Ədəbiyyat və incəsənət" portalının Qarabağ təmsilçisi***

[2] https://edebiyyatveincesenet.az/life/item/28618-bir-khatirae-saemaed-vae-baekhtiyar